2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 73 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri                                        11 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 85 saylı Şamaxı seçki dairəsindən Quşçu bələdiyyəsi üzrə qeydə alınmış namizəd Həsənov Həbib Vəlican oğlu və digərləri 85 saylı Şamaxı seçki dairəsi dairə seçki komissiyasının 03 yanvar 2020-ci il tarixli 02/2 saylı qərarından verdikləri şikayət üzrə araşdırma apararaq **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Ərizəçilər öz müraciətlərində göstərmişlər ki, səsvermənin nəticəsinə uyğun olaraq, 25 və 26 saylı seçki məntəqələrində səslər düzgün hesablanmamışdır.

Araşdırma ilə səsvermə günü 85 saylı Şamaxı seçki dairəsinin 25 və 26 saylı seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış və müəyyən edilmişdir ki, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuşdur. Səslərin sayılmasında hər hansı bir pozuntuya yol verilmədiyi səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər V.Ə.Əsgərov, İ.İ.Heybətov, S.S.Qədimli, V.Kərimov, Y.M.İsmayılov, Ş.Osmanov, bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər G.E.Eminova, A.A.Alpaşayev, M.G,Sadıqov, həmçinin 85 saylı Şamaxı seçki dairəsinin müvafiq seçki məntəqələrinin MnSK üzvləri A.O.Cəbrayılov, İ.N.Ağarəhimov, S.Z.Zülfiqarov, digər şəxslər B.X.Bəhramov, A.A.Bayramovun izahatları ilə təsdiq olunur.

Beləliklə, şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. 1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsindən Quşçu bələdiyyəsi üzrə qeydə alınmış namizəd Həsənov Həbib Vəlican oğlu və digərlərinin 10 yanvar 2020-ci il tarixli 73 saylı müraciəti əsassız

olduğundan təmin olunmasın, 85 saylı Şamaxı seçki dairəsi dairə seçki komissiyasının 03 yanvar 2020-ci il tarixli 02/2 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov